YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

09 yanvar 2025-ci il, cümə axşamı

№ 003 (6831)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



# Xüsusi hiss: Qarşılıqlı etimadın doğurduğu fövqəladə duyğu

Bax səh. 2

# Xarici qüvvələrin regiona cəlb edilməsi qəbuledilməzdir

Bax səh. 2

## Bakı prosesdə sadəcə müşahidəçi olmayacaq...

Qlobal təhlükəsizliyin və yeni, dayanıqlı iqtisadi münasibətlər sisteminin formalaşmasının ən mühüm elementlərindən biri sayılan Cənubi Qafqaz mühüm çağırışlar ərəfəsindədir. Bu mənada qlobal diqqətin regiona yönəlməsi həm təqdirəlayiq, həm də təbiidir - bununla belə fərqli lokal və korporativ maraqlar üzərindən regiona müdaxilə cəhdləri mənasız və yersizdir. Xüsusilə, bölgənin "ən zəif bəndi" sayılan Ermənistan üzərindən qurulan siyasi oyunlar fiaskoya məhkumdur. Son 4-5 il ərzində Azərbaycanın regionla bağlı apardığı uğurlu siyasi kurs demək olar ki, bütün bu çirkin maraqların zərərsizləşdirilməsinə imkan yaradıb - bu səbəbdəndir ki, "son variant" olaraq özünü "havadar" qismində təqdim edən kənar güclər Ermənistanı fərqli yollarla - silahlandırma, revanşist ideologiyaya sürükləmə, müxtəlif dəstək kampaniyaları vasitəsilə şirnikləndirməyə, nəticə etibarı ilə isə, regionda davamlı sülhün formalaşmasına mane olmağa çalışırlar. Amma Ermənistan bu oyunların "alətinə" çevrilməklə ən çox özünə pislik etmiş olur. Hazırki məqamda aktiv silahlanma İrəvanın əleyhinə işləyən bir prosesdir. Bu, Cənubi Qafqazda sülhə mane olmaqla yanaşı, həm də İrəvanın müstəqil inkişaf yolunun məhz özü tərəfindən tam şəkildə qapadılmasına zəmin hazırlayır.

Prezident İlham Əliyev yerli televiziyalara müsahibəsində bildirib ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir. Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir: "Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda, Ermənistan rəhbərliyinə də...

Bax səh. 4



# Biz sülh istəyirik!

## Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil...

Bax səh. 3

## Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi ikitərəfli müstəvidə aparılır

Bax səh. 2

## "Xalqın partiyasını ürəkdən dəstəkləyirik!"

Bax səh. 5

## Azərbaycan Zəfər zirvəsindədir!

Bax səh. 6

## Artımlar yanvar ayından qüvvəyə minir

Bax səh. 4

## İqtisadiyyatın şaxələndirilməsi, düşünülmüş siyasət...

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərə diqqət çəkərək vurğulayıb ki, yola saldığımız 2024-cü ilin sosial-iqtisadi yekunları olduqca qənaətbəxşdir. Ötən il iqtisadi inkişaf baxımından uğurlu il kimi yadda qalıb. Azərbaycanın iqtisadiyyatı öz sürətli inkişafını davam etdirib, ümumi daxili məhsul (ÜDM) 4 faizdən çox artıb.

Qeyd edək ki, 2024-cü ilin yanvar-noyabr aylarında (illik yekun göstərici açıqlanmayıb) əsas makroiqtisadi göstərici olan ÜDM 4,1 faiz böyüyərək nominal həcm baxımından 113,2 milyard manatı ötüb. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 6,4 faizdən çox artıb. Eləcə də sənayedə, xüsusən də qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 11 ay ərzində 60 milyard manata yaxın sənaye məhsulu istehsal edilib ki, istehsalın əsas mənbəyini 7 faiz artımla qeyri neft-qaz sektoru təşkil edir. Dövlət başçısının qeyd etdiyi kimi bu göstəricilər iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı yürüdülən siyasətin mühüm nəticəsi olmaqla, öz müsbət təsirlərini göstərməkdədir. Artıq ölkəmizin inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır. Yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur.

Ötən ilin makroiqtisadi göstəriciləri təsdiqləyir ki, hazırda...

Bax səh. 3



# Qərbin "gürcü arzuları"...

Bax səh. 7

# Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi ikitərəfli müstəvidə aparılır

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Maqdalena Qrono yeni vəzifədə dövlətimizin başçısı tərəfindən qəbul olunmasına görə minnətdarlığını ifadə etdi.

O, təyyarə qəzası ilə bağlı dərin hüznlə başsağlığını çatdıraraq, aviaqəzanın bütün səbəblərinin hərtərəfli şəkildə araşdırılacağına ümidvarlığını bildirdi.

Azərbaycanın Avropa İttifaqının vacib tərəfdaşı olduğunu deyən qonaq vurğuladı ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasında maraqlıdır.

Maqdalena Qrono ölkəmizin region və onun hüdudlarından kənar kontekstində əhəmiyyətinə toxunaraq, bu xüsusda Avropa İttifaqı ilə Azərbaycan arasında dialoqun önəmini vurğuladı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini deyən qonaq, xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın zəngin tarixə malik olduğunu vurğuladı. Bu xüsusda, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji, nəqliyyat, investisiyalar, ticarət və qarşılıqlı maraq doğuran digər sahələrlə bağlı məsələlərə toxunuldu.

Dövlətimizin başçısı ölkəmizin Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirdi və Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesinin ikitərəfli müstəvidə aparıldığını dedi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün təmasların davam etdirilməsinin vacibliyi vurğulandı.

# Xarici qüvvələrin regiona cəlb edilməsi qəbuledilməzdir

## Azərbaycan Prezidenti İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Əli Əkbər Əhmədianın ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Qəbula görə minnətdarlığını bildirən qonaq qeyd etdi ki, dost və qardaş Azərbaycana səfər etməkdən məmnunluq duyur.

Əli Əkbər Əhmədian İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın Ali Rəhbərinə və Prezidentinə çatdırmağı xahiş etdi.

Əli Əkbər Əhmədian vurğuladı ki, regionda Azərbaycan ilə İranın mədəni, tarixi, dini, o cümlədən sivilizasiya əlaqələrinin oxşarı yoxdur və bu cür qədim əlaqələrə malik iki ölkə tapmaq mümkün deyil.

O, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və bütün bunlara görə çox sevindiklərini dedi.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev xalqlarımızın çox sıx tellərlə bir-birinə bağlı olduğunu deyərək, iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının vacibliyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz İran İslam Respublikası ilə əlaqələrin bütün sahələrdə inkişafına həmişə xüsusi əhəmiyyət verir. İranda yeni prezident seçkilərindən sonra Azərbaycanın bir neçə yüksəksəviyyəli nümayəndə heyətinin bu ölkəyə səfər etdiyi məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti İlham Əliyev ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması və torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan işğal dövründə Azərbaycanın həmin ərazilərini darmadağın edib, mədəni və dini abidələrimizi, o cümlədən məscidlərimizi təhqirə məruz qoyub, ibadət ocaqlarında donuz və inək saxlayıb.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz regional məsələlərin region dövlətləri tərəfindən həll edilməsinin tərəfdarıdır və bu xüsusda regional əməkdaşlıq xarakteri daşıyan 3+3 formatının təşəbbüskarı da məhz Azərbaycan Respublikası olub. Regiondankənar xarici qüvvələrin regiona cəlb edilməsinin qəbuledilməz olduğu bir daha qeyd edildi.



Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin və bu baxımdan Azərbaycan, Rusiya və İran arasında üçtərəfli əməkdaşlıq formatının vacibliyinə toxunuldu, Azərbaycanda bu istiqamətdə böyükhəcmli yüklərin olduğu bildirildi. Həmçinin "Araz dəhlizi" layihəsi və bu çərçivədə Ağbənd məntəqəsi istiqamətində, Araz çayı üzərində körpülərin və yol-nəqliyyat infrastrukturunun tikintisi ilə bağlı fikir mübadiləsi aparıldı, bu layihənin də regional nəqliyyat bağlantılarının inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd edildi. Azərbaycan ilə İran arasında Araz çayı boyunca su elektrik stansiyalarının inşası layihələri müzakirə olundu. Azərbaycan, Rusiya və İran arasında elektrik xətlərinin birləşdirilməsi məsələsinə toxunuldu, bu istiqamətdə əməkdaşlıq üçün böyük potensialın olduğu vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsipi əsasında münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyi qeyd olundu, yaxın gələcəkdə Azərbaycanla İran arasında hökumətlərarası komissiyanın növbəti iclasının keçiriləcəyi bildirildi. İclas çərçivəsində dövlət başçıları tərəfindən qeyd olunan konkret layihələrin müzakirəsi baxımından əlverişli imkanın olacağına ümidvarlıq ifadə edildi.

# Xüsusi hiss: Qarşılıqlı etimadın doğurduğu fövqəladə duyğu

## İlham Əliyev: Mən bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni, bu, xüsusi bir hissdir

Hazırda Azərbaycan özünü dünyaya güclü və hər cəhətdən nümunəvi bir dövlət kimi təqdim edir. 2020-ci ildən bəri ərazi bütövlüyümüzü və suverenliyimizi tam təmin etməklə son 200 illik tariximizin ən böyük qələbələrini qazanmışıq. Bu gün Cənubi Qafqazın ən güclü dövləti olan Azərbaycan həm də beynəlxalq səviyyədə əməkdaşlığa, həmrəyliyə, təhlükəsizliyə sanballı töhfələr verən qlobal aktor kimi qəbul olunur.

Eyni zamanda, ölkəmizə və onun Liderinə dünya miqyasında böyük hörmət və inam bəslənilir. Biz görürük ki, qlobal güc mərkəzləri belə respublikamızın qətiyyətli mövqeyi ilə hesablaşırlar. Bəs bunun sirri nədədir? Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına geniş müsahibəsində jurnalistin bu xüsusda Ona ünvanladığı "Coğrafi cəhətdən kiçik, amma qalib və güclü bir dövlətin Prezidenti olmaq necə hissdir?"sualına cavabında ölkəmizin uğur formuluna diqqət çəkib.

### Məsuliyyət və şərəf

Dövlətimizin başçısının jurnalistin sualına cavabından da bəlli olduğu kimi, uğurlarımızın əldə olunmasında hansısa bir sirr də yoxdur. Cavabında iki mühüm məqamı xüsusi vurğulayan Prezident İlham Əiyev "Necə deyim sizə, birincisi, böyük məsuliyyətdir. İlk növbədə, mən öz vəzifəmə bax, belə yanaşıram, hər gün, hər saat, gecə-gündüz. İkincisi, böyük şərəfdir", - deyə bildirib.

İkinci Qarabağ müharibəsinədək biz ərazilərimizin 20 faizinin işğal altına düşməsinin məyusluğunu yaşayırdıq. Bu hiss bizi mənəvi cəhətdən əzirdi, nisgilli idik, fikrimizdə daim tarixi torpaqlarımızı, babalarımızın ruhları dolaşan yurd yerlərimizi geri qaytarmaqla bağlı xəyallar qururduq. Bizi sıxan həm də beynəlxalq təşkilatların ədalətsiz yanaşmaları idi. Təcavüzə məruz qalmağımıza baxmayaraq, bizi haqsız hesab edirdilər. Dünya sanki ermənilərin saxta miflərinin əsrinə çevrilmişdi. Təbii ki, bütün bunlar bir tərəfdən hər birimizə mənəvi əzab verir, digər tərəfdən də bizi hiddətləndirirdi.

Qalib və güclü dövlətin vətəndaşı olmaq isə tamam fərqli bir hissdir. Bu, başda ölkə rəhbərinin özü olmaqla bizim hamımız üçün son dərəcə böyük şərəfdir. Tarixi zəfərimizdən sonra Azərbaycan cəmiyyətinin ovqatı tamam dəyişib. İndi biz son dərəcə qürurluyuq. Çünki özümüzü təsdiqləyə, ermənilərin saxta miflərini dağıtmağa, tarixi ədaləti və beynəlxalq hüququ öz gücümüzlə təmin etməyə nail olmuşuq. Böyük qələbələrimizi heç kəs bizə hədiyyə etməyib. Bu qələbələri qəhrəman övladlarımız bilavasitə döyüş meydanlarında qazanıblar. Biz döyüşməyi bacaran və torpağına bağlı olan xalq olduğumuzu təsdiqləmişik. Ermənilərin özlərinin də bildirdikləri kimi, İkinci Qarabağ müharibəsi günlərində Ermənistan ordusunda 11 mindən çox fərari qeydə alınıb. Onlar mövqelərini, hərbi sursatlarını qoyaraq qaçıblar. Azərbaycan tərəfində isə bir nəfər də olsun fərarilik etməyib, əksinə hər kəs döyüşlərə can atıb. Budur, bizim xalqımızın mənəvi siması!

Azərbaycanın uğur formulunun ən mühüm amillərindən biri xalqın Lider seçiminin doğru olmasıdır. Respublikamızda Prezident öz yerindədir, O, prioritet hədəflərə çatmaqdan ötrü strateji qərarlar qəbul edir, siyasətində ardıcıl və praqmatikdir. Bir şey aydındır ki, əgər dövlətimizin başçısının son dərəcə yüksək məsuliyyəti, gecikmədən və tələsmədən verdiyi mühüm qərarlar olmasaydı, qısa müddətə ölkəmizi bu qədər gücləndirə və möhtəşəm qələbələrə imza ata bilməzdik. Prezident İlham Əliyevin uzaqgörən, ümummilli məsələlərə kifayət qədər həssas münasibət bəsləyən Lider olduğunu Onun Vətən müharibəsinədək olan dövrdə - 17 il ərzində keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinə yanaşması əyani şəkildə təsdiqləyir. Dövlətimizin başçısı bəhs olunan dövrdə xarici təzyiqlərə baxmayaraq, Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllini ölkəmizin gündəliyinin mərkəzində saxlamağa nail oldu. Prezident İlham Əliyev davamlı şəkildə ölkəmizin hər cəhətdən güclənməsinə, Silahlı Qüvvələrimizin maddi-texniki təchizatının möhkəmləndirilməsinə çağırışlar edirdi və bu məqsədlə praktiki müstəvidə zəruri tədbirlərin görülməsini bilavasitə şəxsi nəzarəti altında saxlayırdı. Bəhs olunan dövrdə ölkəmizdə dövlət başçımızın siyasi iradəsi sayəsində davamlı iqtisadi inkişaf üçün zəruri olan bütün şərtlər təmin edildi . O cümlədən respublikamızın artan iqtisadi-maliyyə imkanlarından bəhrələnməklə Silahlı Qüvvələrin maddi-texniki təchizatı möhkəmləndirildi, döyüş hazırlığı yüksək səviyyəyə çatdırıldı. Bütün bunlar da tarixi qələbələrimizin açarı oldu.



### Sarsılmaz xalq-iqtidar vəhdəti

İlham Əlievin 2003-cü ildən bəri apardığı siyasət həmişə nəticəyönümlü olub və yüksək vətəndaş məmnunluğunu təmin edib. Prezident İlham Əliyevi dövlət başçısı kimi fərqləndirən əsas cəhətlərdən biri Onun öz məsuliyyətini xalqa xidmət etməkdə görməsidir. O, 2003-cü il oktyabrın 31-də dövlət başçısı kimi ilk dəfə and içəndə demişdi: "Mən hər bir azərbaycanlının Prezidenti olacağam". Oldu da. Əlbəttə, dövlət başçısı olması İlham Əliyevdən özünəməxsus davranış qaydaları sərgiləməyi tələb edir. Lakin biz İlham Əliyevin vəzifə məsuliyyətinin bütün miqyasını dərk edərək verdiyi qərarlarda, atdığı addımlarda son dərəcə sərrast olması, zamanında hədəfi, strateji məqsədləri düzgün müəyyənləşdirməsi ilə yanaşı, cəsarətlə dövlət siyasətinə xəliqilik elementləri qatmasını da müşahidə edirik. Ölkənin strateji inkişaf kursu, prioritetləri müəyyənləşdirilərkən konseptual yanaşmalarla paralel şəkildə, cəmiyyətdən gələn sosial sifarişlər də mütləq qaydada nəzərə alınır ki, bu da aparılan siyasətin yüksək səmərəliliyini şərtləndirir.

Öz növbəsində, müdrik Azərbaycan xalqı da həmişə dövlət başçımıza güvənib və bütün məsələlərdə Ona dəstək verib. Prezident İlham Əliyev xalqın, birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi Liderdir. Azərbaycan xalqı dövlət başçımıza böyük inamını 2024-cü il fevralın 7-də müstəqillik tariximizdə ilk dəfə ölkənin bütün ərazisində keçirilən Prezident seçkilərində bir daha təsdiqlədi. Son Prezident seçkilərində seçici fəallığının kifayət qədər yüksək olduğu bir şəraitdə Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin səslərin 92,12 faizini toplaması düşünmək üçün əsaslar verir. Niyə məhz İlham Əliyev? Qatıldığı bütün Prezident seçkilərində, o cümlədən də fevralın 7-də seçicilərin mütləq əksəriyyətinin səsini qazanması İlham Əliyevin bir Lider kimi böyük üstünlüyü və xoşbəxtliyidir. Bu, o anlama gəlir ki, xalq Liderin apardığı siyasətdən məmnundur və bu siyasətin gələcəkdə də davam etdirilməsini arzulayır. Ölkəmizdəki sarsılmaz xalq-iqtidar vəhdətinə məmnunluq hissi ilə vurğu edən Prezident İlham Əliyev "Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni, bu, xüsusi bir hissdir. Bunu yəqin ki, bir çoxları yaşamayıb. Xüsusilə hər iki dövrdə ölkəyə rəhbərlik edən şəxs kimi bəlkə də bu, unikal təcrübədir. Dörd il keçməsinə baxmayaraq, hələ ki, bunu tam anlamaq çətindir. Mən azad edilmiş torpaqlarda bəlkə də 100 dəfədən çox olmuşam və hər dəfə gedəndə özümə eyni sözləri deyirəm, eyni sevinci bölüşürəm", - deyə bildirib.

***Mübariz ABDULLAYEV***

# Biz sülh istəyirik!

## Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil...
## İlham Əliyev: Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək

Yeni dövrdə Cənubi Qafqaz üçün sülh artıq reallığa çevrilib. Azərbaycanın irəli sürdüyü şərtlərin mühüm əksəriyyəti Ermənistan tərəfindən qəbul edilir. Bu isə o deməkdir ki, proses nəticəyə yaxınlaşır. Bu, rəsmi İrəvanın artıq Azərbaycanın regionda yaratdığı yeni siyasi-iqtisadi reallıqları qəbul etməsi kimi dəyərləndirilsə də, İrəvanın manipulyativ mahiyyəti hələ də sülhün yaranmasına maneədir. Ermənistan özlüyündə anlayır ki, yaranan siyasi-iqtisadi reallıqlar sülhü və əməkdaşlığı aktuallaşdırır - belə bir iqtisadi platforma isə indiki zamanda bu ölkə üçün hava-su kimi lazımlıdır. Sosial problemlərin əsirinə çevrilmiş Ermənistan Azərbaycanın ona tanıdığı imkandan maksimum bəhrələnməli, özünün yeni inkişaf mərhələsini formalaşdırmalıdır. Amma bununla belə, həm silahlanma, həm də Ermənistanın siyasi rəhbərliyinin vaxtaşırı səsləndirdikləri qeyri-standart açıqlamalar prosesin nəticəyə varmasına mane olur.

Azərbaycanın mövqeyi isə tam şəffaf və açıqdır. Yanvarın 7-də yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bildirib ki, biz sülh istəyirik. Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın: "Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək. Çünki bu şərtlərdə hər hansı bir fövqəladə məsələ yoxdur. Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi - bunlarsız sülh müqaviləsi mümkün deyil. Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil".

### Dialoq deyil, monoloq nəticəsində baş verdi...

Vurğulandığı kimi, Ermənistan dünyada və bölgədə gedən prosesləri düzgün qiymətləndirməlidir - əslində 2024-cü ildə İrəvanın Azərbaycanın işğal altındakı 4 kəndini azad etməsi bir daha onu göstərir ki, bu ölkənin siyasi rəhbərliyi Bakının regiondakı dominant mövqeyini qəbul edir. Əks halda 30 il ərzində bu kəndlərin işğalını davam etdirmiş Ermənistan əraziləri azad etməzdi. Başqa sözlə, 19 aprel 2024-cü ildə yaşanan nailiyyət Azərbaycanın növbəti qələbəsi kimi tarixə yazıldı. Prezident İlham Əliyev müsahibəsində bu məqama toxunaraq bildirib ki, bu, dialoq deyil, monoloq nəticəsində baş verdi. Belə ki, Ermənistanla onilliklər ərzində dialoqun alınmaması aydındır: "Düşünürəm ki, Ermənistanı könüllü surətdə, belə desək, könüllü-məcburi şəkildə bu kəndləri qaytarmağa vadar edən bir neçə amil var. Birincisi, Vətən müharibəsi və onun nəticələridir. İkincisi, antiterror əməliyyatı. Zənnimcə, o, erməni rəhbərliyinin onlarla birlikdə Azərbaycana qarşı duracağı ilə bağlı bütün illüziyaları artıq yox etməli idi. Mənim Qazaxın dörd kəndi ilə bağlı son tələbim Ermənistanın baş naziri qarşısında təxminən bir il əvvəl qoyulmuşdu, ötən ilin fevralında".

Dövlət başçısı qeyd edib ki, son dörd ilin dərsləri, - hərçənd erməni tərəfindən onlar



hələ tam dərk olunmayıb, - nəzərə alınır. "Beləliklə, bunu, həmçinin təkcə delimitasiya üzrə deyil, həm də sərhədin demarkasiyası işində yaxşı ilk addım hesab edirəm. Zənnimcə, bu, elə bir nadir hadisədir ki, delimitasiya və demarkasiya demək olar ki, eyni vaxtda həyata keçirilir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Metodologiya üzrə yanaşmamız erməni tərəfinə təqdim edilib...

Bu, Qalib Xalqın Qalib Lideri olan Prezident İlham Əliyevin tarixi uğurudur. 2020-ci Vətən müharibəsindən başlanan yol uğurla davam və inkişaf etdirilir. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın əldə etdiyi tarixi qələbələr yeni inkişaf mərhələsinin başlanğıcını qoyur. Artıq Ermənistan başqa çıxış yolunun olmadığını anlayır - sülh həm də İrəvan üçün bir xilas yoludur. Yenidən qeyri-konstruktiv addımlara əl atmaq və ya revanşist düşüncələrə qapılmaq Ermənistan üçün daha ağır nəticələr vəd edəcək. Bu səbəbdəndir ki, artıq İrəvan manipulyasiyaların işə yaramadığının, xarici havadarların dəstəyinin heç bir uğur vəd etmədiyinin fərqindədir. Ötən ilin aprelindən başlanan prosesin qarşıdakı dövrdə də davam və inkişaf etdirilməsi perspektivi olduqca böyükdür. Təsadüfi deyil ki, müvafiq delimitasiya və demarkasiya komissiyalarının ötən il ərzində ikitərəfli görüşləri baş tutub və prosesə bağlı hazırlanan Əsasnamə qəbul edilib. Bu yaxınlarda da komissiyaların növbəti görüşünün keçirilməsi nəzərdə tutulur. Dövlət başçısı bildirib ki, bu ay, bizim təşəbbüsümüzlə, təklifimizlə delimitasiya məsələsini davam etdirmək üçün delimitasiya üzrə Azərbaycan və Ermənistan komissiyalarının növbəti görüşü olmalıdır: "Bizim metodologiya üzrə yanaşmamız var, onu erməni tərəfinə təqdim etmişik. Mənə məruzə etdilər ki, aldığımız şifahi cavab ondan xəbər verir ki, onların tərəfindən xüsusi etiraz yoxdur".

### Zəngəzur dəhlizi açılmalıdır və açılacaq!

Sülh prosesi çərçivəsində aktiv müzakirə edilən məsələlərdən biri də yeni beynəlxalq nizamın ən mühüm detallarından biri kimi xarakterizə olunan Zəngəzur dəhlizidir. Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il yanvarın 11-də Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradıb. Qeyd edək ki, müzakirə edilən bu dəhliz müasir "Böyük İpək yolu"dur. Başqa sözlə, "Şərq-Qərb" ticarət yolunun ən mühüm seqmentlərindən biri kimi meydana çıxan Zəngəzur dəhlizi adıçəkilən tranzit xətt üzrə mühüm üstünlüklər formalaşdırır. Bu dəhliz iki kontingent arasında ən əlverişli, qısa və optimal ticarət logistikasıdır. Hazırda bir sıra regionlarda davam edən münaqişələri göz önünə gətirsək, Zəngəzur dəhlizinin aktuallığı daha yaxşı nəzərə çarpar. Bu dəhlizin açılması Şərq-Qərb kommunikasiya sisteminin daha fəal şəkildə inkişafına və inteqrasiyasına təkan verir. Günün reallığı ilə yanaşdıqda, hətta demək mümkündür ki, Zəngəzur dəhlizi Şərq-Qərb dəhlizinin gələcək perspektivini özündə əks etdirir.

Eyni zamanda, Zəngəzur dəhlizinin açılması Azərbaycanla Naxçıvan arasında quru əlaqə formalaşdırmaqla yanaşı, digər region dövlətləri, xüsusilə Ermənistan üçün olduqca vacibdir. Dəhliz açılandan sonra Azərbaycan ərazisindən keçməklə həm Şərq, həm Şimal-Cənub xətti üzrə logistik imkanlara malik olacaq. Beləliklə, bütün region ölkələri yeni infrastruktur layihəsindən faydа götürəcək. Prezident İlham Əliyev müsahibəsində vurğulayıb ki, biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar: "Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər".

*Pərviz SADAYOĞLU*

# İqtisadiyyatın şaxələndirilməsi, düşünülmüş siyasət...

## Azərbaycan ötən il bütün iqtisadi sahələrdə müsbət nəticələrə nail olub

**Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərə diqqət çəkərək vurğulayıb ki, yola saldığımız 2024-cü ilin sosial-iqtisadi yekunları olduqca qənaətbəxşdir. Ötən il iqtisadi inkişaf baxımından uğurlu il kimi yadda qalıb. Azərbaycanın iqtisadiyyatı öz sürətli inkişafını davam etdirib, ümumi daxili məhsul (ÜDM) 4 faizdən çox artıb.**



### Qeyri-neft sektoruna söykənən dayanıqlı inkişaf

Qeyd edək ki, 2024-cü ilin yanvar-noyabr aylarında (illik yekun göstərici açıqlanmayıb) əsas makroiqtisadi göstərici olan ÜDM 4,1 faiz böyüyərək nominal həcm baxımından 113,2 milyard manatı ötüb. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 6,4 faizdən çox artıb. Eləcə də sənayedə, xüsusən də qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 11 ay ərzində 60 milyard manata yaxın sənaye məhsulu istehsal edilib ki, istehsalın əsas mənbəyini 7 faiz artımla qeyri neft-qaz sektoru təşkil edir. Dövlət başçısının qeyd etdiyi kimi bu göstəricilər iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı yürüdülən siyasətin mühüm nəticəsi olmaqla, öz müsbət təsirlərini göstərməkdədir. Artıq ölkəmizin inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır. Yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur.

Ötən ilin makroiqtisadi göstəriciləri təsdiqləyir ki, hazırda dünyada gedən proseslər və mürəkkəb qlobal mühit, ələlxüsus da geosiyasi vəziyyətə nəzərən ölkəmizin əldə etdiyi iqtisadi göstəricilər dayanıqlıdır. Eyni zamanda, beynəlxalq əmtəə bazarlarında dəyişkən qiymətlərə və dünya ölkələrində borc və büdcə kəsirinin artmasına baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi tam təmin olunmaqdadır. Bütün bunların təməlində isə düşünülmüş siyasət dayanır. Məhz bu mükəmməl iqtisadi siyasət xəttinə uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf modelinin təkmilləşdirilməsi əsas prioritetlərdən biri olacaq.

Azərbaycan hökumətinin apardığı iqtisadi islahatlar, şəffaflıq, inhisarçılığa qarşı mübarizə, investisiyaların cəlb edilməsi, investisiya iqliminin yaxşılaşdırılması istiqamətində əldə etdiyi nailiyyətlər aparıcı beynəlxalq reytinq agentliklərinin ölkəmizə olan münasibətində müsbət dəyişikliklər yaradıb. Beynəlxalq reytinqimiz daha da yaxşılaşdırılıb və daha yüksək səviyyəyə layiqdir.

Azərbaycanın maliyyə vəziyyəti də əhəmiyyətli dərəcədə yaxşılaşıb, məhz bu potensial hesabına 2024-cü ilin büdcəsi rekord səviyyədə təsdiq edilib və həmin resurslar hesabına bir çox sosial proqramlar icra edilib. Ələlxüsus da Qarabağın bərpası ilə bağlı böyük vəsaitlər səfərbər olunub. Bununla yanaşı, aparılan düzgün maliyyə siyasəti və optimallaşma valyuta ehtiyatlarımızın daha da artmasına səbəb olub. İl ərzində valyuta ehtiyatlarımız təqribən 5 milyard dollardan çox artıb və bu gün bu rəqəm 72 milyard dollara bərabərdir. Əhalisi 10 milyon olan ölkə üçün bu, çox böyük göstəricidir. Dünya ölkələrinin valyuta ehtiyatlarının hesablanması, əlbəttə ki, adambaşına düşən ehtiyatlara söykənməlidir və bu göstəriciyə

### Azərbaycan dünyada ən az xarici borca malikdir

görə Azərbaycan dünyada aparıcı ölkələrin sırasındadır. Eyni zamanda, ölkəmizin borc yükü aşağı düşüb, birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 7,2 faizini təşkil edir. Hazırda ümumi daxili məhsulun xarici borca olan nisbətinə görə, Azərbaycan dünyada liderlər sırasındadır. Müqayisə üçün deyək ki, əksər inkişaf etmiş ölkələrdə bu, 100 faizdən də çoxdur.

### Müstəqilliyin ən böyük büdcə zərfi təsdiq edilib

Azərbaycanın iqtisadi-maliyyə gücünün əsas barometrlərindən biri olan büdcə ehtiyatlarının davamlı artımı 2025-ci ilin ən rekord həcmdə maliyyə sənədinin tərtib edilməsinə səbəb olub. Dövlət büdcəsinin gəlirləri 38,4 milyard manat nəzərdə tutulur ki, bu da cari ildə dürüstləşdirilmiş büdcənin gəlirləri ilə nisbətdə təxminən 1 milyard manat çoxdur. Büdcə gəlirlərinin 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 19 milyard 543 milyon manatı qeyrineft-qaz sektorunun payına düşür. Qeyri-neft gəlirləri büdcədə 51 faizə yaxın olmaqla yenə də üstünlük təşkil edir. Dövlət büdcəsinin xərcləri 41 milyard 368 milyon manat məbləğində nəzərdə tutulur ki, bu rəqəm 2024-cü ilin dürüstləşdirilmiş büdcəsinə nisbətən 1 milyard 625 milyon manat və yaxud 4,1 faiz çoxdur. Bu, müstəqil Azərbaycanın tarixində ən böyük büdcə zərfi deməkdir. Faktiki olaraq yeni ilin büdcəsinin maliyyə portfeli ümumi daxili məhsulun (ÜDM) üçdə birinə bərabərdir. İcmal büdcə isə 48 milyard manatı ötüb. Bütün bu amillər onu göstərir ki, ölkəmizin milli dövlət yığımları yalnız daxili resurslar hesabına, şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət nəticəsində mümkün olur.

Prezident İlham Əliyevin zəngin çoxşaxəli və unikal dövlətçilik təcrübəsi və bənzərsiz fəaliyyəti təsdiqləyir ki, Azərbaycanda dövlət quruculuğu çox etibarlı və möhkəm əllərdədir. Azərbaycan regionun lider dövləti statusunda həm də regional iqtisadi güc faktorudur.

### Hökumətin məqsədi vətəndaşların daha da yaxşı yaşamasını təmin etməkdir

Dövlət başçısı yerli televiziya kanallarına müsahibəsində ölkəmizdə icrasına başlanılan yeni sosial paketin parametrlərinə də toxunub. Qeyd edib ki, bu il yanvarın 1-dən minimum əməkhaqqı 55 manat artıb və 400 manata çatıb. Minimum pensiya 40 manat artıb və 320 manata çatıb. Orta hesabla artım 14-15 faizdir. Ölkəmizin qarşısında Qarabağın bərpası kimi ağır və çətin maliyyə xərclərinin dayandığı bir dövrdə bu sahəyə xüsusi diqqət yetirmək dövlətin sosial simasını, mahiyyətini göstərir. Hökumətin əsas məqsədi Azərbaycan vətəndaşlarının ildən-ilə daha yaxşı yaşamasına nail olmaqdır. Hökumət maliyyə imkanları artdıqca, sosial və iqtisadi inkişafı paralel şəkildə nizamlayaraq əməkhaqqı, pensiya, sosial müavinət, təqaüd və digər sosial ödənişlərin artımını təmin edəcək.

*E.CƏFƏRLİ*

09 yanvar 2025-ci il, cümə axşamı № 003 (6831)

# Bakı prosesdə sadəcə müşahidəçi olmayacaq...

## Qərb dairələrinin anti-Azərbaycan mahiyyəti bütün kodları üzrə ortaya qoyulub

Qlobal təhlükəsizliyin və yeni, dayanıqlı iqtisadi münasibətlər sisteminin formalaşmasının ən mühüm elementlərindən biri sayılan Cənubi Qafqaz mühüm çağırışlar ərəfəsindədir. Bu mənada qlobal diqqətin regiona yönəlməsi həm təqdirəlayiq, həm də təbiidir - bununla belə fərqli lokal və korporativ maraqlar üzərindən regiona müdaxilə cəhdləri mənasız və yersizdir. Xüsusilə, bölgənin "ən zəif bəndi" sayılan Ermənistan üzərindən qurulan siyasi oyunlar fiaskoya məhkumdur. Son 4-5 il ərzində Azərbaycanın regionla bağlı apardığı uğurlu siyasi kurs demək olar ki, bütün bu çirkin maraqların zərərsizləşdirilməsinə imkan yaradıb - bu səbəbdəndir ki, "son variant" olaraq özünü "havadar" qismində təqdim edən kənar güclər Ermənistanı fərqli yollarla - silahlandırma, revanşist ideologiyaya sürükləmə, müxtəlif dəstək kampaniyaları vasitəsilə şirnikləndirməyə, nəticə etibarı ilə isə, regionda davamlı sülhün formalaşmasına mane olmağa çalışırlar. Amma Ermənistan bu oyunların "alətinə" çevrilməklə ən çox özünə pislik etmiş olur. Hazırkı məqamda aktiv silahlanma İrəvanın əleyhinə işləyən bir prosesdir. Bu, Cənubi Qafqazda sülhə mane olmaqla yanaşı, həm də İrəvanın müstəqil inkişaf yolunun məhz özü tərəfindən tam şəkildə qapadılmasına zəmin hazırlayır.

Prezident İlham Əliyev yerli televiziyalara müsahibəsində bildirib ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir. Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir: "Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda, Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu, yeni təhlükə yarada bilər. Eyni zamanda, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar".



Qeyd edildiyi kimi, Cənubi Qafqaza müdaxilə planlarının reallaşması üçün Ermənistana havadarlıq edən dairələr bölgədə silahlı təhdidin aradan qalxmasını yumşaq şəkildə desək, istəmirlər. Əksinə, ötən ilin aprelində ABŞ-Aİ-Ermənistan arasında imzalanan birgə sənəd bu vəziyyətin demək olar ki, stimullaşdırılmasıdır. Bölgədə planlaşdırılan sülh prosesini diskomfort trayektoriyaya yönəltmək üçün Bayden administrasiyası və Aİ bütün güclərini səfərbər etdilər:

- Mülki müdafiə adı altında kəşfiyyat dəstələri Ermənistan ilə Azərbaycan arasındakı şərti sərhəddə göndərildi;

- Aİ-də Fransanın başçılığı altında Ermənistanın "hərbi müttəfiq arealının genişləndirilməsi" görüntüsü yaradıldı (Hindistanın və Yunanıstan prosesə cəlb olunması ilə);

- Bayden administrasiyasının "təşəbbüsü" ilə Ermənistan ilə ABŞ birgə hərbi təlimlərə start verdi.

Beləliklə, Qərbin bu dairələrinin anti-Azərbaycan mahiyyəti bütün kodları üzrə ortaya qoyuldu. Prezident İlham Əliyev müsahibəsində ötən ilin aprelində Amerika, Avropa İttifaqı və Ermənistan arasında yaradılmış platformaya diqqət çəkərək bildirib ki, bizdə olan məlumata görə, bu görüşdən əvvəl əldə edilmiş razılaşmada hərbi komponent də var idi, ancaq ondan sonra o, rəsmən oradan çıxarıldı, amma de-fakto orada qalır: "Bu, əslində, həm Avropa Komissiyasını, həm Amerika Birləşmiş Ştatlarını Azərbaycan-Ermənistan normallaşma prosesindən kənarlaşdırıb. Biz onlara bu barədə artıq bildirmişik. Əgər hər hansı bir tərəf tərəf tutursa, o, dürüst vasitəçi ola bilməz. Məhz buna görə keçən ay Amerika Dövlət katibinin xahişi havada qaldı və Azərbaycan üçtərəfli görüşə razılıq vermədi. O cümlədən, bildiyiniz kimi, Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüsseldə bir çox görüşlər keçirilmişdir. Artıq buna da son qoyuldu. Yəni, biz ikitərəfli danışıqlar formatının tərəfdarıyıq və əlbəttə ki, Azərbaycan bu məsələnin tərəfi kimi öz mövqeyini müdafiə edəcək".

### Azərbaycan öz mövqeyini müdafiə edəcək...

Beləliklə, Azərbaycan özünün qətiyyətini açıq şəkildə ortaya qoyur. Gücündən və ya qlobal məkandakı statusundan asılı olmayaraq destruktiv addımlara köklənən niyyətlər Bakı tərəfindən açıq iqnor edilir. Cənubi Qafqazla bağlı qeyri-konstruktiv planlar quranlar anlamalıdır ki, Ermənistanla əməkdaşlıq və ya tərəfdaşlıq onlar üçün nəinki hər hansı bir üstünlük vəd etmir, tam əksinə, onların əsl kimliyinin üzərinə işıq salır...

### Ermənistana bu silahlar ya pulsuz verilir, ya da...

Diqqət yetirsək, Ermənistanı açıq silahlandıran və ya dolayısı ilə silah üçün maliyyə ayıran dairələr bu və ya digər şəkildə bir-biri ilə əlaqəlidir. Məsələn, İrəvanın silahlandırılmasında "müstəsna" rolu olan Fransa pərdəarxasında prosesi fərqli məcraya yönəltməyə çalışır - Paris anlayır ki, Ermənistanın bu silahların pulunu vermək üçün heç bir iqtisadi resursa malik olmaması onların əleyhinə işləyən bir məqamdır. Bu baxımdan, dövrəyə yeni bir "ermənipərəst havadar" çıxır - Avropa Sülh Fondunun xətti ilə Ermənistana bu "silahların pulunu" ödəməsi üçün maliyyə yardımı ayrılır. Dövlət başçısı müsahibəsində qeyd edib ki, Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir. "Eyni zamanda, Avropa İttifaqının dırnaqarası sülh fondundan. Dırnaqarası, çünki sülh fondu, əslində, sülh məqsədləri üçün istifadə olunmalıdır. Onların sülh fondu isə silahlanmaya istiqamətləndirilir. Oradan da birinci ödəmə edildi və bizdə olan məlumata görə, bu, son ödəmə deyil", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Siyasi səhnədən biabırçılıqla silinirlər

Ermənistan isə həm baş verənlərdən, həm də dünyada gedən yeni proseslərdən özləri üçün nümunə çıxarmalıdırlar. Yeni qlobal sistemdə standartlar və çağırışlar fərqlidir - artıq əməkdaşlıq və tərəfdaşlıq paradiqmaları heç də lokal maraqlar üzərindən tənzimlənmir. Dünyanın aparıcı gücləri mənfi tendensiyalarla beynəlxalq aləmdə sülh proseslərinə mane olmağa çalışanları həm ifşa edir, həm də zərərsizləşdirir. Məsələn, illərdir Azərbaycanın əleyhinə aparılan kampaniyalarda ön sırada təmsil olunan Kanadanın baş naziri Castin Trüdo istefa verdi. Fransa lideri Makronun rəhbərlik etdiyi hakimiyyətin neokolonialist siması artıq bütün dünyada ifşa edilir. Siyasi rüsvayçılıq yaşayan Makron başını o qədər itirib ki, Azərbaycana qarşı cəfəng iddialar səsləndirməkdən, boş fikirlər söyləməkdən belə "çəkinmir". Bu onu göstərir ki, artıq dünyada fərqli proseslər başlayıb. Ermənistan da bu proseslərdən özü üçün nəticə çıxarmalıdır, heç kimin köməyinə arxayın olmamalıdır. Prezident İlham Əliyev müsahibəsində Ermənistan tərəfinə hər şeyi, o cümlədən dünyadakı geosiyasi dəyişiklikləri yaxşı ölçüb-biçməyi məsləhət görüb: "Onların yaxın dostları siyasi səhnədən biabırçılıqla silinirlər. Bax, dünən xəbər gəldi ki, Ermənistanın və Paşinyanın yaxın dostu cənab Trüdo da vəzifədən getməli oldu. Həmin bu ölkə ki, İkinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı dövrdə qatı anti-Azərbaycan mövqeyində idi, heç Fransadan çox da uzağa getmir. Fransaya gəldikdə, indi orada siyasi səhnədə nələr baş verir? Hər kəs özü görür. Dünən Fransa prezidenti Azərbaycana qarşı yenə də cəfəng ittihamlar irəli sürmüşdü. Görünür ki, cənab Makron Azərbaycansız yaşaya bilmir. Onda hansısa belə bir maniya yaranıb və bütün günahlarını bizim üstümüzə atmaq istəyir. Mən hesab edirəm, əgər biz o qədər güclənmişik ki, Fransanın daxili işlərinə qarışa bilərik və nəyisə dəyişə bilərik, biz, sadəcə olaraq, bununla fəxr edə bilərik".

O ki qaldı, Paşinyan hakimiyyətinin əsas "dayaqlarından" sayılan Bayden administrasiyasına, o cəbhədə də vəziyyət İrəvan üçün ürəkaçıcı deyil. Yeni hakimiyyət özünün prioritet istiqamətləri haqda danışır və gələcək münasibətlərin müstəvisi müəyyənləşdirilir. Ermənistan isə Bayden administrasiyası dövründə daxil olduğu "tablo"dan qovulur. Prezident müsahibəsində bildirib ki, Amerikada da Soros dövrü başa çatıb: "Ermənistan rəhbərliyi bunu da nəzərə alsın. Nəzərə alsın ki, Yaxın Şərqdə onların yaxın müttəfiqi Əsəd diktaturası artıq tarixin zibilliyinə göndərilib və bu, davam edəcək, ona görə düzgün addım atsın. Biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar".

***P.İSMAYILOV***

# Artımlar yanvar ayından qüvvəyə minir

## Minimum əməkhaqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək

2025-ci ilin yanvar ayından etibarən ölkəmizdə beşinci sosial islahat paketi çərçivəsində sosial artımların icrasına start verilib. Dövlət başçısının imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamına uyğun olaraq, ilk növbədə, minimum əməkhaqlarının artımının təmin edilməsi icra olunacaq. Minimum aylıq əməkhaqqının məbləğinin 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılması sayəsində dövlət və özəl sektorda çalışan insanların maaşlarının ən aşağı məbləği 400 manat təşkil edəcək.

Minimum əməkhaqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da təxminən bir ay müddətində bu sərəncama uyğunlaşdırılacaq və artırılacaq. Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əməkhaqqı artacaq.

### 800 min nəfərin əməkhaqqı artacaq

Qeyd edək ki, sosial təyinatlı artımlar "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına" istinadən Prezident İlham Əliyevin müvafiq tapşırığı əsasında hazırlanmış layihə üzrə müəyyənləşib. Dövlət başçısı bir neçə ay əvvəl minimum əməkhaqqı və minimum pensiyanın artırılması barədə göstəriş verib və aidiyyatı nazirliklər tərəfindən də bu istiqamətlərdə yekun təklif və layihə hazırlanıb. Beləliklə, 2025-ci il yanvarın 1-dən 400 manata çatdırılacaq minimum əməkhaqqının yeni əmsalları sayəsində ölkə üzrə 700-800 min vətəndaşın əmək haqqının artımı təmin olunacaq.

Minimum əməkhaqqının artımı əhalinin gəlirlərinə müsbət təsir etməklə, həm də əmək bazarına mühüm fayda verir, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, məhsuldarlığının, əməyin leqallaşdırılmasını təmin edir. Minimum əməkhaqqının növbəti artımından sonra bu rəqəm yaşayış minimumunu təxminən 30-40 faiz üstələmiş olacaq. Digər tərəfdən minimum əməkhaqqı artımı, ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də yüksəlməsinə imkan verəcəkdir. Qeyd edək ki, həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildəki 33,3 faizə, 2020-ci ildəki 38 faizə yüksəlib. 2022-ci ildə isə 40 faiz səviyyəsinə yüksəlib. Bununla da bu nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyiş olacaq.

### Minimum pensiya və ünvanlı yardım da yüksəlir

Minimum pensiya məbləği isə fevralın 1-dən artacaq və 280 manatdan 320 manata çatdırılacaq. Bu o deməkdir ki, minimum pensiya alanlar növbəti aydan artırılmış 40 manat məbləği davamlı alacaqlar. Ancaq ünvanlı dövlət sosial yardımı ilə bağlı artım yanvardan hesablanacaq. Ehtiyac meyarının məbləği 2025-ci il yanvarın 1-dən 285 manata çatdırıldığından ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləği də həmin aya uyğun artırılacaq. Bir məqamı da aydınlaşdıraq ki, yeni ehtiyac meyarı məbləği əmsalı ünvanlı sosial yardım proqramı çərçivəsində yeni yardım almağa başlayan insanlara şamil olunacaq. Yəni, vətəndaşın müraciəti yanvar ayında müsbət cavablandırılaraq yardım ödənilməsi ilə bağlı qərar verildikdə, artırılmış məbləğlər də bu aydan tətbiq olunacaq.




### Büdcədən maliyyələşən təşkilatlarda maaşlar 15 faiz artırılıb

Prezidentin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" sərəncamına əsasən, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı və Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Atatürk Mərkəzi, dövlət arxivləri və filialları, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, Dövlət Film Fondu, Quba şəhərində "Soyqırımı memorial kompleksi", Milli Aerokosmik Agentliyinin Aparatı, Milli Kulinariya Mərkəzi, Mənəvi Dəyərlərin Təbliği Fondu və icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıqların maaşları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb.

Dövlət büdcəsindən maliyyələşən həmin təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşlarının artımı əhalinin sosial təminatının daha da gücləndirilməsinin prioritetliyini bir daha təsdiq edir, il ərzində icra olunacaq sosial paketin əhatəsinin daha da genişlənəcəyindən xəbər verir.

### Əmək pensiyalarının artımı da bu aydan hesablanacaq

Ölkə üzrə ən əhatəli artımlardan biri əmək pensiyalarının indeksasiyasıdır. İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" Qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Ona görə də, növündən asılı olmayaraq bütün əmək pensiyaçılarının pensiya məbləğində indeksasiyalar üzrə artımlar hesablanacaq.

Qanunvericiliyə əsasən, pensiyalar hər il yanvar ayında əvvəlki ilin yekun orta aylıq əməkhaqqının artım faizinə uyğun olaraq indeksasiya edilərək artırılır. 2024-cü ilin 11 ayı üzrə ölkədə orta aylıq əməkhaqqı artımı təxminən 8 faiz təşkil edib. İllik yekun rəqəm adətən yanvar ayının sonlarında və ya fevralın ilk günlərində açıqlanır. Təxmini proqnozlara görə, 2024-cü il üzrə yekun orta aylıq əməkhaqqı artımının 10 faiz olacağı gözlənilir. Belə olduğu halda əmək pensiyalarınını məbləği həmin göstəriciyə əsasən indeksasiya olunacaq. Yəni, 400 manat pensiya alan şəxsin pensiyası 40 manat artmış olacaq.

Rəsmi statistikanın elan edilməsi və indeksasiya üzrə hüquqi-iqtisadi məsələlərin tənzimlənməsi fevral ayının əvvəllərinə qədər vaxt apardığından pensiya artımları yanvar ayı da hesablanmaqla fevral ayında iki ay birlikdə ödəniləcək. Yəni, pensiyaçılar artımları gələn aydan etibarən əldə edəcəklər.

Digər sosial artımlar, yəni müavinət və təqaüdlərin yenidən hesablanaraq ödənilməsi isə 2025-ci ilin ikinci rübündə təmin olunacaq. Belə ki, dövlət başçısının imzaladığı 23 dekabr 2024-cü il tarixli sərəncamına uyğun olaraq, Nazirlər Kabineti üç ay müddətində müvafiq sənədi hazırlayacaq. Həmin sosial təkliflər toplusu mart ayının sonlarında hazır olduqdan sonra hüquqi mexanizm formalaşacaq və sosial paket üzrə bütün artımlar təmin ediləcək.

***E.CƏFƏRLİ***

# Göygöl seçiciləri YAP-ın namizədlərinə səs verəcəklər






Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Göygöl rayonu, Göygöl bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev Yeni Azərbaycan Partiyasının seçki proqramı və namizədləri haqqında ətraflı məlumat verib: "Ölkəmizdə indiyədək keçirilmiş bələdiyyə seçkilərində fəal iştirak edərək inamlı qələbələr qazanan Yeni Azərbaycan Partiyası yeni reallıqlar və çağırışlar fonunda növbəti seçkilərə də böyük qələbə əzmi ilə qatılıb".

Seçki qərargahının üzvləri Hamlet Ömərov və Dilarə Qazıyeva, bələdiyyə üzvlüyünə namizədlər Müşfiq Abbasov, Mehman Ocaqverdiyev, Araz Abbasov, Oqtay Məsimov ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atıldığını, bugünədək bələdiyyələrin bir çox layihələrin həyata keçirilməsinə və sosial məsələlərin həllinə önəmli töhfələr verdiyini qeyd ediblər.

Çıxış edən seçicilər Vilayət Hacıyev, şəhid ailəsi üzvü Səadət Fətəliyeva, Fərhad İsmayılov bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini vurğulayıblar. "Göygöl seçiciləri YAP-ın namizədlərini dəstəkləyirlər", - deyə bildirilib.

# "Xalqın partiyasını ürəkdən dəstəkləyirik!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Yasamal rayonu, Yasamal bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, ölkəmiz növbəti mühüm ictimai-siyasi proses ərəfəsindədir: "Yanvarın 29-da bələdiyyə seçkiləri keçiriləcək. Seçkilərin azad, şəffaf və ədalətli keçirilməsi üçün bütün şərtlər və lazımi şərait təmin edilib".



YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verən B.Nəbiyev bildirib ki, dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikrini əsas götürən Yeni Azərbaycan Partiyası bu sahədə yeni dönəmin çağırışlarına uyğun məqsədyönlü fəaliyyət həyata keçirmək əzmindədir.

Seçki qərargahının üzvü Hüseyn Hüseynov, təşviqat qrupunun üzvü İlhamə Qəsəbova, bələdiyyə üzvlüyünə namizədlər Gülxar Nərimanova və Fuad Mirələmov çıxış edərək seçiciləri müasir, qalib və qüdrətli Azərbaycanın vətəndaşlarının yüksək rifahı naminə ümumxalq partiyasının - Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər Kəmalə Cəfərova və Zəhra Şahbazova YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar. "Xalqın partiyasını ürəkdən dəstəkləyirik!", - deyə bildirilib.

# "İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağsu rayonu, Növcü bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev xalqın etimadını layiqincə doğruldan YAP-ın bu seçkilərə yeni reallıqlar və çağırışlar fonunda qatıldığını qeyd edib. Sonuncu bələdiyyə seçkilərindən ötən dövr ərzində ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunduğunu söyləyən F.Abdullayev əhalinin sosial rifahının əhəmiyyətli şəkildə yüksəldiyini bildirib.

Görüşdə çıxış edən bələdiyyə üzvlüyünə namizədlər Nəsrulla Kərimov, Novruz Cəfərov, Niyaməddin Dəmirov yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində görülən işlər və qarşıda duran hədəflərdən bəhs ediblər.




Seçicilər Pərviz Heydərov və Nicat Bəşirov Yeni Azərbaycan Partiyasının siyasətini dəstəklədiklərini və bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər. "Yeni Azərbaycan Partiyasına inamımız sarsılmaz, mövqeyimiz isə dəyişməzdir!", - deyə vurğulanıb.

# YAP yüksək nüfuza malikdir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qusar rayonu, Urva bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov Yeni Azərbaycan Partiyasının hər zaman milli maraqlara, mövcud reallıqlar və çağırışlara uyğun fəaliyyət göstərdiyini qeyd edib. Onun sözlərinə görə, bu, insanların partiyaya olan inamını daha da möhkəmləndirib: "YAP bu gün cəmiyyətimizdə olduqca yüksək nüfuza malikdir. Heç şübhəsiz, yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri də xalqın Yeni Azərbaycan Partiyasına etimadının daha bir bariz nümunəsi olacaqdır".




Seçki qərəgahının üzvləri Arif Xəlilov və Rail İskəndərov bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində rolundan danışıblar.

Bələdiyyə üzvlüyünə namizədlər Sudya Mançarov və Rüzgar Ağamuradov seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasını dəstəkləməyə çağırıblar.

# "Yeni Azərbaycan Partiyasına güvənirik!"





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Sədərək rayonu, Sədərək bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Sədərək rayon təşkilatının sədri Arif Qasımov YAP-ın seçki proqramı barədə ətraflı məlumat verib. O, partiya sıralarının gündən-günə artmasının, sosial bazasının daha da möhkəmlənməsinin xalqın Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiqliyinin, Prezident İlham Əliyevin siyasətinə birmənalı dəstəyinin bariz nümunəsi olduğunu deyib.

Seçki qərargahının üzvü Sirac Qarayev, bələdiyyə üzvlüyünə namizədlər - Zakir Zamanov, Müslüm Əliyev, Zümrüd Rzazadə və Yolçu Ələkbərov ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının fəaliyyətindən söz açıblar. Onlar bu sahədə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Seçicilər Süleyman Tağıyev, Lətif Allahyarov, Oruc Abdullayev və digərləri yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərində xalqın inamını qazanmış YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər. "Yeni Azərbaycan Partiyasına güvənirik!",- deyə vurğulanıb.

# Müasir tariximiz möhtəşəm nailiyyətlərlə zəngindir




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şəki rayonu, Cumakənd bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Şəki rayon təşkilatının sədr müavini Ziya Vəliyev bildirib ki, müasir tariximiz möhtəşəm nailiyyətlərlə zəngindir: “Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası budəfəki seçkilərə də böyük uğurlarla gedir. Əminliklə söyləmək olar ki, ümumxalq partiyası olan YAP bundan sonra da qarşısında duran vəzifələri müvəffəqiyyətlə yerinə yetirməklə ölkəmizin inkişafına müstəsna töhfələr verəcək”.



Seçki qərargahının üzvü Vüqar Qafurov, bələdiyyə üzvlüyünə namizədlər Samir Hacəliyev və Güllü Şərifova seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə və layiqli namizədləri dəstəkləməyə çağırıblar.

Seçicilər Əfsər Mahmudov və Aynur Əliyeva YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# YAP ölkəmizin inkişafına dəyərli töhfələr verir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Pirallahı rayonu, Pirallahı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Pirallahı rayon təşkilatının sədri Emil



Abasov bildirib ki, hər bir partiyanın ali məqsədi seçkilərdə iştirak edərək xalqın səsini qazanmaqla onun arzu və istəklərini gerçəkləşdirməkdir. Təşkilat sədri YAP-ın xalqın etimadını layiqincə doğrultduğunu, ümumxalq partiyası və aparıcı siyasi qüvvə kimi uğurla fəaliyyət göstərdiyini diqqətə çatdırıb: “Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafına dəyərli



töhfələr verir”.

Tədbirdə çıxış edən seçki qərargahının üzvü Arzu Cahangirova, bələdiyyə üzvlüyünə namizədlər Əli Kərimov, Heydər Vəliyev, Möhübət Məhərrəmov və Səadət İbrahimova bələdiyyələrin yerli özünüidarəetmə orqanları olaraq bir çox mühüm layihələrin həyata keçirilməsində önəmli rol oynadıqlarını vurğulayıblar. Onlar seçiciləri bələdiyyə seçkilərində fəal iştirak edərək YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Azərbaycan Zəfər zirvəsindədir!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Samux rayonu, Sərkar bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin liderliyi ilə ölkəmiz böyük inkişaf yolu keçib: “Dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Yeni, müasir, müstəqil və qüdrətli Azərbaycan bu gün Zəfər zirvəsindədir. Qarşıda yeni hədəflər durur və dövlət başçısının uzaqgörən siyasəti Azərbaycanın qüdrətini daha da artıracaq”.



Bələdiyyə üzvlüyünə namizədlər Şəmistan Yusifov və Mirzəmməd Orucov YAP-ın seçki



proqramı haqqında ətraflı məlumat veriblər. Qeyd olunub ki, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması məqsədilə islahatların davam etdirilməsi başlıca hədəflərdəndir.

Çıxış edən seçicilər Gülağa Hüseynov və İlqar Alıyev isə YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# “Bizi növbəti qələbələr gözləyir”





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində İmişli rayonu, Bəhrəmtəpə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan bəhs edib. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin tarixi nailiyyətlərə imza atdığı vurğulanıb, bu uğurların zirvəsində möhtəşəm Zəfərimizin dayandığı qeyd olunub: “Yeni dövrdə bizi yeni qələbələr gözləyir”.

Milli Məclisin deputatı Səyyad Salahlı 700 mindən çox üzvü olan YAP-ın ötən müddət ərzində bütün seçkilərdə inamlı qələbələr qazandığını qeyd edib. O, seçicilərin bələdiyyə seçkilərində də Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP-ın namizədlərinə səs verəcəklərinə əminliyini ifadə edib.

Bələdiyyə üzvlüyünə namizədlər Məhəmmədəli Zeynalov və Rafael Həsənov çıxışlarında ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların mənafeyinin dayandığını vurğulayıblar. Qeyd olunub ki, insanların yüksək sosial rifahının təmin edilməsi prioritetinə uyğun olaraq yerli özünüidarəetmənin səmərəliliyinin artırılması mühüm hədəflərdəndir. Onlar seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar.

# Yeni Azərbaycan reallığı milli qürur mənbəyimizdir!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Xətai rayonu, Xətai bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev Yeni Azərbaycan Partiyasının seçki proqramı haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib: “Bu gün YAP Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə aparıcı rolunu daha da möhkəmləndirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni uğurlara imza atır”.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər qazandığını bildirib: “Bütün uğur və qələbələrimiz Heydər Əliyev yolu ilə bağlıdır.



Azərbaycan dünyaya qüdrətini nümayiş etdirib və bu gün yeni zəfərlərə imza atmaq əzmindədir. Xalqımız bu reallıqları görür və müsbət qiymətləndirir. Yeni Azərbaycan reallığı milli qürur mənbəyimizdir”.

Təşviqat qrupunun üzvləri Mürvət Əsgərov, Meyvəddin Ramaldanov, Elgiz Dadaşov və Rafiq Nəcəfov əldə olunan nailiyyətlərə diqqəti cəlb edərək seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasına etimad göstərməyə - partiyanın namizədlərinə səs verməyə çağırıblar.

# “Yeni dövr yeni uğurlar vəd edir”



2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Kəngərli rayonu, Qıvraq bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.

YAP Kəngərli rayon təşkilatının sədri



Sevda Quliyeva partiyanın seçki proqramı barədə ətraflı məlumat verib. O qeyd edib ki, yeni dövr müasir Azərbaycana yeni uğurlar vəd edir. “Xalqımız Heydər Əliyev yoluna sadiqdir, ölkəmizin parlaq gələcəyinə inanır və bunu seçkilərdə Yeni Azərbaycan Partiyasına dəstəyi ilə ifadə edir. Heç şübhəsiz, növbəti bələdiyyə seçkiləri də bu inam və etimadın, birlik və həmrəyliyin daha bir ifadəsi olacaqdır”, - deyə S.Quliyeva bildirib.



Seçki qərargahının üzvləri Çiçək Əlizadə, Bəxtiyar Süleymanov, bələdiyyə üzvlüyünə namizədlər Murad İsmayılov, Xanım Nəcəfova və Azər Əliyev YAP-ın seçki proqramında əksini tapan hədəflərin xalqın dəstəyi ilə həyata keçiriləcəyini əminliklə ifadə ediblər. Onlar seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar.

# Qərbin “gürcü arzuları”...

## Tbilisidə etirazlar 40 gündən çoxdur davam edir

Ötən il qonşu və dost Gürcüstanın tarixində seçkilər ili kimi qaldı. Bu ölkədə oktyabrın 26-da növbədənkənar parlament seçkiləri keçirilib və İrakli Kobaxidzenin rəhbərliyi altında hökumət formalaşdırılıb. Dekabrın 14-də isə parlamentdə ölkə tarixində ilk dəfə 300 nəfərdən ibarət seçki kollegiyası hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyasının namizədi Mixail Kavelaşvilini Gürcüstanın altıncı Prezidenti seçib. Yeni Prezident dekabrın 29-da and içib.

Beləliklə, qonşu ölkədə ötən il üçün qanunvericiliyə uyğun qaydada planlaşdırılan siyasi proseslər yekunlaşıb. Bununla belə, yeni ilin ilk günlərində də Tbilisi küçələrində hakimiyyət-müxalifət qarşıdurması tam sənğiməyib. 2024-cü il noyabrın 28-də hakimiyyətin Gürcüstanın 2028-ci ilə qədər Avropa İttifaqına (Aİ) daxil olması ilə bağlı danışıqların başlanmasının gündəmdən çıxarılması barədə bəyanatından dərhal sonra başlayan etirazlar permanent hal alıb və artıq təxminən 40 gündən artıqdır ki, davam edir.

### Aİ-nin şantajı, Gürcüstanın etirazı

Gürcüstanda yeni parlament və prezident seçkiləri siyasi gərginlik şəraitində baş tutub. Məlumdur ki, son bir ildə qonşu ölkədə artan və iğtişaşlara, dövlət çevrilişinə cəhdə qədər genişlənən gərginlik əslində Gürcüstan-Qərb qarşıdurması kimi dəyərləndirilir. Qərb dairələri tərəfindən rəsmi Tbilisi siyasi oriyentasiyasını dəyişməkdə, Avropa İttifaqına inteqrasiyadan yayınmaqda, Rusiyaya meyllənməkdə ittiham olunur. Qərb dairələri bu qəbildən olan ittihamları səsləndirərkən Gürcüstan parlamentində ötən il hakim partiyanın təşəbbüsü ilə qəbul olunan iki qanuna istinad edirlər. Həmin qanunlardan biri xarici təsirin şəffaflığının təmin olunmasını, digəri isə gürcü xalqının milli ləyaqətini, adət-ənənələrini, ailə dəyərlərini qorumağı hədəfləyir. Hər iki məsələ Gürcüstan üçün çox aktualdır. Son illərdə Qərb dairələrinin ölkənin vətəndaş cəmiyyəti üzərində təsir imkanları həddsiz dərəcədə artıb. Belə ki, qonşu ölkədə xaricdən maliyyələşən qeyri-hökumət təşkilatlarının sayı yağışdan sonra göbələk kimi artıb. Hakimiyyət Qərbin vətəndaş cəmiyyətini özündən asılı vəziyyətə salmaqla Gürcüstanın milli maraqlarına nüfuz etdiyi qənaətindədir. Yuxarıda bəhs olunan qanunlar da məhz bu təhlükəli tendensiyanın qarşısını almaq məqsədi daşıyır. Gürcüstan hakimiyyəti Avropa İttifaqına inteqrasiya prosesinin milli dövlətə qarşı şantaj vasitəsinə çevrildiyini bildirərək qəti narazılığını ortaya qoyub. Onu da qeyd edək ki, Baş nazir İrakli Kobaxidzenin yuxarıda xatırlatdığımız bəyanatından sonra ölkə Avropa İttifaqı və ABŞ tərəfindən sanksiyalarla hədələnir.

Eyni zamanda, ayrı-ayrı Qərb dairələri, o cümlədən də bəzi ölkələr Gürcüstanda ötən il baş tutan seçkilərə kölgə salmağa çalışırlar. Qərbdən gələn direktivlər əsasında sabiq prezident Salome Zurabişvilinin rəhbərlik etdiyi müxalifət yeni seçkilərin keçirilməsini tələb edir. “Bəzi beynəlxalq tərəfdaşlar ikili standartları rəhbər tutur, Gürcüstandakı etirazları “dinc” adlandırır, etirazçıların polisə qarşı zorakılığına göz yumurlar”. Bu sözləri hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyasının deputatı Eka Sepaşvili sosial şəbəkə hesabında yazıb.

“Almaniyanın və Fransanın hökumət rəsmiləri - Maykl Rot və Natali Loiseaunun başqa ölkənin seçkilərinə müdaxilə ilə bağlı nəsə deməsi çox ironikdir”. Bu fikirlər isə Gürcüstan parlamentinin sədri Şalva Papuaşviliyə məxsusdur. “Ümid edirəm ki, bir çox insanlar Gürcüstanda keçirilən seçkilərə bu cür kobud və qanunsuz müdaxilə ilə oturduqları demokratiyanın və suverenliyin qolunu kəsdiklərini tədricən anlayacaqlar”, - deyə Ş.Papuaşvili vurğulayıb.



### Makronun Gürcüstan yalanları

Fransa prezidenti Makron Gürcüstana da dil uzadır. Şalva Papuaşvili jurnalistlərə açıqlamasında bildirib ki, Fransa prezidenti Emmanuel Makronun bəyanatı gürcülərin müxtəlif ölkələrin hakimiyyətlərinə inamını sarsıdan yalan rəvayətə əsaslanır. Hər bir kəs gürcü xalqının iradəsinə hörmət etməlidir.

Onun sözlərinə görə, Gürcüstanda yeni seçkilərdən danışmaq, ilk növbədə gürcü xalqına, ən azı 1 milyon 120 min insana hörmət edilmədiyini göstərir.“Bir-birimizin suverenliyinə hörmət etmək BMT-nin əsas prinsipidir. Ona görə də yeni seçkilərlə bağlı danışıqlar gürcü xalqının suveren seçiminə müdaxilədir.

Biz bu və ya digər Avropa liderinin və ya siyasi gücünün legitimlik böhranlarını görürük. Əgər onlar başqa ölkələrin hakimiyyətlərindən danışmaq istəyirlərsə, o zaman biz də başqa dövlətlərin hakimiyyətlərindən danışacağıq. Onların bəziləri etibarını itirmiş Almaniyadakı kimi keçici hökumətlərdir. Onlar öz xalqının etimadını qaytarmaqla məşğul olmaq əvəzinə, Gürcüstan xalqının iradəsinə müdaxilə etməklə məşğuldurlar. Prezident Makronun Rusiyanın Gürcüstandakı seçkilərə müdaxiləsi barədə bəyanatının da yalan rəvayətə əsaslandığını görürük. Bu, ilk növbədə Fransanın Gürcüstandakı səfirliyinin üzərinə düşür. Prezidentlə söhbətində yalan danışıq bu səviyyəyə qalxır”, - deyə Papuaşvili bildirib.

Makronun səfirlər konfransında səsləndirdiyi iddialara Baş nazir İrakli Kobaxidze də özünəməxsus şəkildə cavab verib. “Fransa prezidenti məhv olmaq üçün qurban verilmiş Ukraynaya baxmalıdır. Mən əsl problemin nə olduğunu deyirəm. Yalanlara şərh verə bilmərəm. Mən hamının üzləşdiyi problemi şərh edirəm - bu, məhv edilmiş Ukraynadır”, - deyə İ.Kobaxidze Fransa prezidentinin bəyanatları ilə bağlı jurnalistlərin suallarını cavablandırarkən deyib. Onun sözlərinə görə, bu gün hamının üzləşdiyi əsl problem dağıdılmış Ukraynadır.

**Makronun səfirlər konfransında səsləndirdiyi iddialara Baş nazir İrakli Kobaxidze özünəməxsus şəkildə cavab verib. “Fransa prezidenti məhv olmaq üçün qurban verilmiş Ukraynaya baxmalıdır. Mən əsl problemin nə olduğunu deyirəm. Yalanlara şərh verə bilmərəm. Mən hamının üzləşdiyi problemi şərh edirəm - bu, məhv edilmiş Ukraynadır”, - deyə İ.Kobaxidze Fransa prezidentinin bəyanatları ilə bağlı jurnalistlərin suallarını cavablandırarkən deyib. Onun sözlərinə görə, bu gün hamının üzləşdiyi əsl problem dağıdılmış Ukraynadır**

### ATƏT PA prezidentinin təxirə salınan səfəri

Bu arada ATƏT Parlament Assambleyasının (PA) prezidenti Pia Kauma yanvarın 8-də Gürcüstana nəzərdə tutulan səfərini qeyri-müəyyən vaxta təxirə salıb.

Bu barədə Pia Kauma “X” sosial şəbəkə hesabında yazıb.

O qeyd edib: “Müzakirələr və məsləhətləşmələr nəticəsində Gürcüstana səfərimi ATƏT Parlament Assambleyasının iştirakı ilə daha təsirli ola biləcək bir vaxta qədər təxirə salmaq qərarına gəldim. Biz hamını dinləməyə və ATƏT/DTİHB-nin seçki tövsiyələrinin həyata keçirilməsində yardım təklif etməyə hazırıq”.

*MÜBARİZ*

# Mücərrəd sevginin konkret ünvanı

## Migel de Unamunonun “Duman” romanı haqqında

əvvəli ötən sayımızda

Arvadından fərqli olaraq don Fermin Auqustonu qohumuyla evlənməkdən çəkindirməyə çalışır. Euxeniya evə qayıdanda bibisi onu müjdələyir, ancaq qız üçün bu, yenilik deyil, ondan əvvəl Euxeniya Auqustodan məktub almışdı, oğlanın niyyətindən xəbərdar idi. Çəkdiyi əziyyətə, düçar olduğu yoxsulluğa baxmayaraq qız qururunu ayağa vermir, don Auqustonun namizədliyini geri itələyir. Bibi onun qərarından çox narazı qalır, Euxeniyaya məsləhət bilir ki, son sözünü deməyə tələsməsin, çox güman, oğlanı görəndə fikrini dəyişəcək. Don Fermin də deyir ki, Allahın işini bilmək olmaz. Donya Ermelinda onun sözünü kəsir: sənin allahın anarxizmlə necə yola gedir, əgər dünyanı heç kəs idarə eləmirsə, onda Allah nəyə lazımdır? Don Fermin cavab verir ki, Allahın idarəçiliyi insanlarınkına bənzəməz, Allah özü də anarxistdir. Bunun ardınca Euxeniya bibisinə deyir ki, o da don Fermin kimi azadlıq tərəfdarıdır, ona görə də əziyyətlə yaşamağı könülsüz yaşamaqdan üstün tutur.

***

Ertəsi gün Maurisio tində Euxeniyanın qabağını kəsir. Qız ona deyir musiqidən iyrənib, dərs deməyə candərdi gedir, əgər Maurisio tezliklə özünə iş tapmasa, onların birgəliyi baş tutmayacaq. Oğlanın qırımından görünür ki, bekarçılıq onu əsla narahat eləmir, iş tapa bilməməsi ondan ötrü sadəcə bəhanədir. Ələcsız qalan qız son vasitəyə əl atır: eybi yox, evlənək, hələlik mənim qazancımla keçinərik. Bu təklif Maurisionun guya qüruruna toxunur, arvad hesabına yaşamaq onluq deyil.

Onlara növbəti gedişində bibisi Euxeniyanı Auqusto ilə tanış eləyir. Qız oğlana soyuq, rəsmi münasibət göstərir, onunla həm birbaşa, həm də səmimi danışır, musiqidən zəhləsi getdiyini gizlətmir. Bir sözlə, Euxeniya hər fürsətdə hər vasitəylə Auqustonu özündən uzaqlaşdırmağa, soyutmağa, çiyrindirməyə çalışır. Donya Ermelinda qardaşı qızına don Auqustonun onun borclarını ödəmək istədiyini söyləyəndə Euxeniya bunu özünə təhqir sayır, oğlanın niyyətini onu satın almaq cəhdi kimi qiymətləndirir. Euxeniyanın hünərinə heyran qalan don Fermin “Budur dürüstlük, budur azadlıq! Budur gələcəyin qadını! Belə qadını gərək gücə əl alasan, dostum Peres, gücə!” deyə vəcdə gəlir. Auqustoya da qızın jesti, qüruru, zabitəsi son dərəcə xoş təsir bağışlayır.

***

Səhəri gün Auqusto dostu Viktoru görmək üçün kazinoya gedir. Yol boyu öz-özünə danışır: “İndi mənim məqsədim var, həyatda öz səmtim var: ya bu qızı fəth eləmək, ya da imkan vermək ki, o məni zəbt eləsin. İkisi də bir şeydir. Sevgidə fərqi yoxdur, sən yendin, ya səni yendilər...” Auqusto yol uzunu gördüyü qadınların, qızların hamısına bir anda aşiq olur. Müdrik Viktor ona düşdüyü vəziyyəti, keçirdiyi halları belə izah eləyir:

“ - Əzizim Auqusto, indiyəcən məhəbbət çeşməsi sənin qəlbinin dərinliyində mışıl-mışıl yatırdı, çünki axmağa bir ünvan tapmırdı. Euxeniyanın həyatına gəlişi səni silkələdi, o çeşməni çalxalayıb yuxudan oyatdı. Çeşmə daşıb hər yana tökülməyə başladı. Sənin kimisi bir qızı ürəkdən sevəndə onun timsalında bütün qadınlara aşiq olur.

- Mənsə elə bilirdim tərsinə olur, adam birini sevəndə gözü hər yerdən yığılır, bütün diqqəti bir nəfərin üstündə cəmlənir, qalanlar ona maraqsız gəlir...

- Yaxşı, görüm səni başa sala biləmmi. Sən özündən xəbərsiz qadına vurulmusan. Ancaq hansısa konkret qadına yox, ümumiyyətlə qadına, mücərrəd qadına. Euxeniyanı görəndə mücərrəd dönüb konkret oldu, ümumiyyətlə qadın dönüb oldu gördüyün bu qadın. Sən ona aşiq oldun, indi də Euxeniyanı unutmadan öz sevgini güzarına çıxan hər qadına köçürürsən. Sən çoxluğu sevirsən, cinsi sevirsən. Beləcə, sən mücərrəddən konkretə, konkretdən isə ümumən zənən cinsinə; ümumiyyətlə qadından bir qadına, o bir qadından isə bütün qadınlara keçmisən.

- Bu ki metafizikadır!

- Kim deyir məhəbbət metafizika deyil?.. Sənin sevgin başdan gəlir, sən özün də təmiz ideya, düşünülmüş varlıqsan”.

***

Bu söhbətin məzmunundan gördünüz kimi, Auqusto Peres sələfləri Don Kixot, Knyaz Mışkin sayağı saf ruhdur, abstrakt varlıqdır. Ruhun sevgisi konkret ola bilməz, mücərrəd olmalıdır. Gerçək sevgi ilahi duyğudur, onun konkret ünvanı olsaydı, ədaləti olmazdı.

Bu başqa məsələ ki, mücərrəd total duyğu, abstrakt hiss konkret ünvana hədəflənə, konkret canlıya, o cümlədən insana tətbiq oluna bilər. Fərz eləyək ki, bir demokrat siyasətçi bütün dünyada demokratiyanın bərqərar olunmasını arzulayır, ancaq onun bu diləyini cəmi yer üzündə həyata keçirmək imkanı yoxdur. Onda bu alovlu demokrat ideal saydığı quruluşu yaşadığı ölkədə, bölgədə, lap elə şəhərdə, kənddə tətbiq eləməyə çalışır. Fəqət bu, o demək deyil ki, onun ideyası lokal, məhəlli xarakter daşıyır; ideya, əlbəttə, universaldır, abstraktdır, sadəcə, onun tətbiqi lokal miqyasda, konkret məkanda həyata keçirilir. Auqustonun da sevgisi beləcə ünvansız, miqyassız, beləcə mücərrəddir, əgər o sevginin hədəfinə Euxeniya yox, bir başqa qız tuş gəlsəydi, yenə həmən-həmən olacaqdı.

Bethoven ən gözəl əsərlərini qulağı çöldən bir not, təbiətdən bir cınqıltı belə ala bilməyəndə, içindəki həmin o mücərrəd səsin, abstrakt ruhun diktəsiylə yazmışdı. Xəlifə Leylidə Məcnunun gördüyü gözəlliyi tapmamışdı, çünki o gözəlliyə mücərrəd ruhun gözüylə baxa bilməmişdi. Sufilərin dediyi kimi, mərifət mücərrəd, sonsuz ümmandır, hər kəs ondan qabının tutduğu qədər götürür. Səməd Vurğunu sevdiyi qız şair eləmişdisə, nədən o qızın əri də şair olmamışdı? “Özün öz yolunsan” (Ramiz Rövşən) deyiminin altında yatan fəlsəfə də budur. Determinizm, səbəb-nəticə qanunları mənəvi müstəvidə keçərli deyil, səbəb də, nəticə də ruhun öz doğrusudur. Ruh azaddır, hansısa kənar təkanla hərəkətə gəlmir, özü özünü tərpədir, özü özünə təkan verir. Quran nə deyir - əgər Allah istəməsə, sən bunu istəyə bilməzsən; yəni əgər ruhunla, ruhdan yola çıxmasan, sənə heç nə kömək olmaz, ilahi həqiqəti fəhm eləyə bilməzsən.

Lokal, məhəlli həqiqət ola bilməz, həqiqət həmişə universaldır. Qloballıq, universallıq həqiqətin xislətidir. Haqq özü cahana sığmaz, konkret ünvanda haqqın yalnız təcəllası məskunlaşar...

***

Don Auqusto Peres qadın psixologiyasını dərindən öyrənmək üçün bu sahədə araşdırmalar aparan, elmi iş yazan Paparriqopulos soyadlı bir eruditlə görüşür. Xasiyyəti, fikirləri də soyadı kimi parodik olan bu erudit söhbət əsnasında on yeddinci əsrin az tanınan holland müəllifinə istinadla Auqustoya hər kəsdən qoruduğu sirrini açır: əgər hər bir kişiyə ayrıca ruh verilibsə, qadınların hamı üçün ümumi bir tək kollektiv ruhu var. Onlar arasındakı gözlə görünən fərqlər yalnız irqi, bioloji, antropoloji, bir sözlə, cismani xüsusiyyətlərin doğurduğu fərqlərdir.

Qadınlar bir-birinə kişilərin öz həmcinslərinə bənzədiyindən qat-qat artıq oxşayırlar. Bu da ondan irəli gəlir ki, onlar hamısı bir adamdır. Holland qadınşünasın fikrincə, qadında fərdilik kişidən çoxdur, əvəzində şəxsiyyət kişidəkindən azdır; hər qadın özünü istənilən kişidən qatqat artıq individual sayır, ancaq məzmunu kasaddır. Qadınlar arasında müqayisə aparmağa lüzum yoxdur, onların ya birini öyrəndin, ya minini - təfavüt eləməz. Hansı kişi bir qadını yaxşıca tanıyırsa, deməli, ümumən Qadına bələddir. Bir qadına mükəmməl bələd olmaq min qadını alayarımçıq tanımaqdan üstündür.

Auqusto suallarına cavab alandan sonra dərin fikrə dalıb deyir: “İndi anlayıram ki, niyə bir qadına vurular-vurulmaz mənə elə gəldi bütün qadınlara aşiq olmuşam”. Holland qadınşünasın dediyinə inansa, gənc aşiqin Euxeniyanı, ya Rosarionu seçməyinin heç bir təfavütü yoxdur, cildləri fərqli olsa da, bu qızların içi birdir.

Bu məqamda mənim yadıma Migel de Unamunonun da çox yüksək dəyər verdiyi Danimarka filosofu, fəlsəfədə ekzistensializm cərəyanının banisi sayılan Sören Kyerkeqorun (don Migel onun əsərlərini orijinaldan oxumaq üçün sevimli filosofunun yazdığı dili də öyrənmişdi) bir nəzəri postulatı düşür: böyük filosof deyirdi ki, təbiətdəki canlılar arasında individuallıq yoxdur, təbiətdə əsas tutulan növdür; yəni təbiət üçün ayrı-ayrı fərdlərin yox, bütövlükdə növün yaşaması vacibdir. Başqa sözlə, qarışqaların, sərçələrin, maralların, ayıların ayrı-ayrılıqda yox, bir kollektiv ruhu var, ona görə də heç bir qarışqa, sərçə, maral, ya ayı ayrıca fərd sayılmır. İnsan isə fərqlidir, individuallıq insanın başlıca xüsusiyyəti, toxunulmaz mülkiyyəti, müqəddəs sərvətidir.

Doğrudur, Kyerkeqor qadının insandan fərqli olduğunu söyləməmişdi...

davamı növbəti sayımızda



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544

“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694

“Səma” MMC - 0125940252, 0503336969

“Pressİnform” MMC - 0703400100, 0504560835

“Qaya” MMC - 0125667780, 0502352343

“Qasid” MMC - 0124931406, 0124938343

F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898

“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**

**12 aylıq abunə - 158,40 AZN**




# Övladını azad və xoşbəxt Vətəndə böyütmək istəyirdi...



ƏSGƏROVA SALATIN ƏZİZ qızı
16.12.1961 - 09.01.1991

## Salatın Əsgərovanın şəhid olmasından 34 il ötür

Qələbə hər bir xalqın vahid hədəf uğrunda mübarizəsi zamanı qazanılır. Bu mənada vətəndaşların öz fəaliyyət sahəsində xalqının, dövlətinin maraqlarını qoruması, bu uğurda bütün gücünü səfərbər etməsi, hətta can verməsi qalibiyyətin ən ümdə şərtlərindəndir. Tarix boyu ermənilərin Azərbaycana qarşı əsassız iddiaları, sonradan hərbi təcavüzü xalqımızı bir nəfər kimi mübarizəyə köklədi. Hər kəs öz sahəsində Vətənin azadlığı, Azərbaycan həqiqətlərinin yayılması uğrunda döyüşə atıldı. Bu mübarizənin önündə isə əli silahlı əsgərlərimizlə yanaşı, əli qələmli jurnalistlərimiz də döyüşürdü. Belə insanlardan biri də şəhid jurnalist Salatın Əsgərova idi...

Qarabağ məsələsi, Azərbaycanın ərazi bütövlüyü, erməni qəsbkarlarına qarşı igidliklə vuruşan oğullarımızın şücaəti həyatının son üç ilində Salatın Əsgərovanın jurnalist fəaliyyətinin aparıcı mövzularını təşkil edirdi. O, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. Ailəsi, iş yoldaşları, yaxınları ondan bərk nigaran qalar, döyüş bölgəsinə getməyinə mane olmağa çalışardı, lakin bu cəhdlər heç bir nəticə verməzdi. Çünki Salatın Əsgərovanı cəbhə xəttinə çağıran səs daha qüvvətli idi. Bu, darda qalan, övladlarının sevgi və fədakarlığına ehtiyac duyan Vətənin səsi idi...

## Peşəsinə sadiq olan qorxmaz qadın!

Onun köksündə Vətən sevgisi ilə dolu bir ürək döyünürdü, buna görə də o səsə biganə qala bilməzdi. Ailəli idi, bir oğlu vardı, hər gün öpüb-qucaqlayıb bağrına basdığı, həyatının anlamı bildiyi övladı üçün canını qurban verərdi. Amma o, övladını azad və xoşbəxt vətəndə böyütmək istəyirdi. Buna görə də Qarabağda gedən gərgin döyüşləri aləmə hayqırmaq, səsini hamıya çatdırmaq üçün cəbhə bölgəsinə gedirdi. Peşəsinə sadiq olan bu qorxmaz qadın Qarabağın ən odlu nöqtələrində olurdu. “Molodyoj Azerbaydjana” qəzetinin oxucuları onun doğma torpağa məhəbbət, azğın düşmənə nifrətlə dolu oçerklərini, yol qeydlərini səbirsizliklə gözləyirdilər. Onun həqiqəti söyləyən, erməni faşizminin iç üzünü açan yazıları düşmənin qəlbinə ox kimi sancılırdı...

## Sonuncu reportaj...

Onun fəaliyyətindən söz açmağımız əbəs deyil, çünki bu gün Azərbaycanın Milli Qəhrəmanı, jurnalist Salatın Əsgərovanın şəhid olduğu gündür.

S.Əsgərovanın müharibənin qaynar nöqtələrindən hazırladığı reportajlar geniş oxucu kütləsi qazanmışdı. O, öz imzası ilə tanınır və sevilirdi. Amma... 1991-ci il yanvarın 9-da yenə səfərə yola düşdü. Növbəti reportajını hazırlamaq, həqiqəti çatdırmaq, Vətənə heç olmasa qələmi ilə yardım etmək üçün. Laçından Şuşaya gedərkən yolun 6-cı kilometrliyində - Qaladərəsi kəndi yaxınlığında düşmən onun olduğu maşını yaxın məsafədən atəşə tutdu, Salatın Əsgərova elə hadisə yerindəcə həlak oldu.

Vəfatından sonra Azərbaycanın qəhrəman qızı Bakıda Şəhidlər Xiyabanında dəfn olundu. Ölümündən sonra ona “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi. Hazırda Bakı şəhərində adına bir küçə var. Bakı buxtasındakı gəzinti katerlərindən biri də onun adını daşıyır.

*Yeganə BAYRAMOVA*

# Sahibkarlığın inkişafı üçün!

## Vergi güzəştləri tətbiq edilir...

İnkişaf etmiş ölkələrdə azad sahibkarlıq iqtisadi tərəqqinin əsas elementlərindən biri hesab olunur. Liberal iqtisadiyyat məhz azad sahibkarlıq və azad rəqabətin üzərində qurulur. Ölkəmizdə azad sahibkarlıq mühitinin təmin edilməsi yürüdülən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Bu sahədə dövlət tərəfindən ardıcıl olaraq müxtəlif stimullaşdırıcı və təşviqedici addımlar atılır. Bunun nəticəsidir ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafında son illərdə özəl sektorun, kiçik və orta sahibkarlığın payı artır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

## Sahibkarların gəlirlərinin 75 faizi vergidən azad edilir

Məlum olduğu kimi, ölkə başçısı 27 dekabr 2024-cü il tarixində Milli Məclisin ötən il dekabrın 16-da qəbul etdiyi “Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanunu təsdiqləyib. Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Məcəllədə edilmiş dəyişikliklərdən biri bəzi xidmət sahələri üzrə mikro sahibkarların gəlirlərinin 75 faiz hissəsinə vergi güzəştinin tətbiqi ilə bağlıdır. Belə ki, Vergi Məcəlləsinə 2024-cü ildən qüvvəyə minmiş dəyişikliyə əsasən, müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkar fiziki şəxslərin sahibkarlıq fəaliyyətindən gəlirinin 75 faizi gəlir vergisindən azad edilsə də, bu sahədə müəyyən uyğunsuzluqlar və sui-sitifadə hallarına yol verilməsi aşkarlanıb. Belə ki, aparılmış təhlillər nəticəsində bir sıra fiziki şəxslərin əhaliyə deyil, digər vergi ödəyicilərinə xidmət göstərdikləri, buna görə də sadələşdirilmiş verginin ödəyicisi olmadıqları müəyyənləşdirilib.

Məhz bu səbəbdən bəzi xidmət sahələri üzrə fəaliyyət göstərən və illik dövriyyəsinin həcmi xərclər nəzərə alınmadan 45 min manatadək olan mikro sahibkar fiziki şəxslərə münasibətdə gəlirlərinin 75 faizinin hər hansı şərt tətbiq edilmədən gəlir vergisindən azad olunması ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər edilib. Qeyd olunan güzəştin tətbiqi nəticəsində real sahibkarlıq fəaliyyəti ilə məşğul olan mikro sahibkarların fəaliyyətinin dəstəklənməsi, eləcə də azgəlirli mikro sahibkarların vergi yükünün optimallaşdırılması nəzərdə tutulur.



## 6 KOB subyektinə “Startap” şəhadətnaməsi verilib

Sahibkarlığın təşviqində startapların fəaliyyəti də mühüm yer turur, dövlət bu subyektlərə də müxtəlif güzəştlər tətbiq edir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daha 6 KOB subyektinə “Startap” şəhadətnaməsi verilib ki, bununla da “Startap” şəhadətnaməsi almış KOB subyektlərinin sayı 188-ə çatıb.

KOBİA-dan bildirilib ki, KOB subyektləri şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilir.

## Sahibkarlara vergi təşviqləri veriləcək...

Azərbaycanda dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində sahibkarlara vergi təşviqlərinin verilməsi də əsas dəstək mexanizmlərindəndir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində Vergi Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən biri dövlət - özəl sektor tərəfdaşlığının və “yaşıl iqtisadiyyat”ın dəstəklənməsi məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələrinə vergi təşviqlərinin verilməsi ilə bağlıdır.

Bütövlükdə, dövlət - özəl sektor tərəfdaşlığı və elektrik enerjisi istehsalı layihələri çərçivəsində xidmətlərin göstərilməsi, eləcə də həmin xidmətlərlə bağlı zəruri infrastrukturun yaradılması və idarəedilməsi ilə əlaqədar layihələrin icrasına investisiyaların cəlb edilməsi məqsədilə vergi azadolmaları tətbiq olunur. Belə ki, dövlət - özəl sektor tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaşlara, bərpaolunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə isə istehsalçılara müvafiq müqavilələrdə müəyyənləşdirilmiş müddətdə, lakin 30 ildən çox olmayaraq mənfəət (gəlir), əmlak, torpaq, idxalda isə ƏDV üzrə güzəştlər verilir.

Qeyd olunan istiqamətlərdə vergi təşviqlərinin verilməsi ölkənin investisiya mühitinin bir qədər də təkmilləşdirilməsinə, iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb olunmuş özəl investisiyaların dəstəklənməsinə şərait yaradacaq. Bundan başqa, birbaşa xarici investisiyaların həcminin artırılmasına, o cümlədən dövlət - özəl sektor tərəfdaşlığının və dövlətin satınalma öhdəliyi ilə özəl sektor tərəfindən həyata keçirilən elektrik enerjisi istehsalı layihələrinin dəstəklənməsinə öz töhfəsini verəcək.

*Yeganə BAYRAMOVA*

### İdman

## Cüdoçumuz Fransada “Böyük Dəbilqə”də iştirak edəcək



Azərbaycanın qadın cüdoçusu Açelya Toprak Fransada keçiriləcək “Böyük Dəbilqə”də iştirak edəcək.

AZƏRTAC Beynəlxalq Cüdo Federasiyasının (IJF) rəsmi saytına istinadən xəbər verir ki, 57 kiloqram çəki dərəcəsində çıxış edən idmançı cüdo üzrə ilin ilk turnirində mübarizə aparmaq üçün Parisə yollanacaq.

Fevralın 1-2-də təşkil olunacaq yarışda iştirak üçün hələlik 28 ölkə qeydiyyatdan keçib.

## Azərbaycanın Olimpiya çempionları ilin ilk beynəlxalq toplanışında iştirak edirlər

Azərbaycanın cüdo üzrə milli komandası Avstriyanın Mittersil şəhərində keçirilən Olimpiya təlim-məşq toplanışına qatılıb.

Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq toplanışda 30 azərbaycanlı cüdoçu, o cümlədən Olimpiya çempionları Hidayət Heydərov və Zelim Kotsoyev iştirak edirlər. Avropa Cüdo Birliyi tərəfindən təşkil olunan bu təlim-məşq toplanışı yeni mövsümə hazırlığın əsas mərhələsi hesab olunur.



Yanvarın 15-dək davam edəcək hazırlıq prosesində ümumilikdə 44 ölkədən 848 idmançı iştirak edir.

# Yeni metod...

## Yoluxucu xəstəliklərə qarşı daha sürətli və effektiv cavab

“Nature” jurnalında dərc olunmuş yeni bir tədqiqat, insan populyasiyalarında yayılan patogenlərin daha yoluxucu variantlarını sürətlə müəyyən etmək üçün innovativ bir metod təqdim edir. Bu yanaşma, COVID-19, qrip, göy öskürək və vərəm kimi xəstəliklərin monitorinqində əsaslı dönüş yarada bilər.

“Science Daily” saytı xəbər verir ki, Kembric Universitetinin Genetika Departamentindən doktor Noemie Lefrancq və həmkarları tərəfindən hazırlanan metod, yoluxmuş insanlardan alınan nümunələr əsasında patogenlərin genetik ardıcıllığını analiz edərək, onların yeni və təhlükəli variantlarını avtomatik olaraq aşkarlaya bilir. Bu texnologiya variantların genetik dəyişikliklərini və insan populyasiyalarında yayılma potensialını obyektiv şəkildə qiymətləndirir. Hazırda mövcud sistemlər ekspert qruplarının qərarlarına əsaslanır. Lakin bu metod, “ailə ağacları” yaratmaqla patogenlərin genetik dəyişikliklərini real vaxt rejimində izləyir və insan müdaxiləsi olmadan yeni variantları müəyyənləşdirir. Yeni texnologiya, xüsusilə, məhdud resurslu bölgələrdə effektiv nəzarət sistemlərinin qurulmasına imkan verir.

Professor Julian Parkhill (Kembric Universiteti) bu yanaşmanın əsas üstünlüklərindən birinin geniş spektrli virus və bakteriyalara tətbiq oluna bilməsi olduğunu vurğulayıb: “Biz yeni metodla yüksək ötürücülük qabiliyyəti olan variantları sürətlə aşkarlaya və onların populyasiyada necə yayıldığını anlayaraq effektiv müdaxilə strategiyaları hazırlaya bilirik”.



Yeni yanaşma Bordetella pertussis (göy öskürək) bakteriyası üzərində sınaqdan keçirilib və daha əvvəl müəyyən edilməmiş üç yeni variant aşkarlayıb. Professor Sylvain Brisse diqqətə çatdırır ki, göy öskürəyin yenidən artması və antibiotikə davamlı variantların yaranması bu yanaşmanı daha vacib edir. Eyni metod “Mycobacterium tuberculosis” (vərəm) bakteriyası üzərində də sınanıb və antibiotikə müqavimət göstərən iki yeni variant müəyyən olunub. Professor Henrik Salje (Kembric Universiteti) bildirib: “Bu metod, hansı variantların daha təhlükəli olduğunu sürətlə göstərərək, xüsusi vaksinlərin və müalicə strategiyalarının hazırlanmasını dəstəkləyir”.

Patogenlərin genetik təkamülü yeni və daha yoluxucu variantların yaranmasına səbəb olur. Bu texnologiya, yalnız xəstəliklərin nəzarətində deyil, həm də onların qarşısının alınması və yayılmasının məhdudlaşdırılmasında əhəmiyyətli irəliləyişlər təmin edə bilər. Professor H.Salje qeyd edib ki, yeni metod yoluxucu xəstəliklərə qarşı ictimai səhiyyə strategiyalarının ayrılmaz hissəsinə çevrilə bilər və hökumətlərin bu sahədəki reaksiyalarını tamamilə dəyişə bilər. Bu yenilik, dünya miqyasında yoluxucu xəstəliklərə qarşı mübarizədə daha dəqiq və təsirli cavab mexanizmləri üçün ümidvericidir.


Təsisçi: Yeni Azərbaycan Partiyası

Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3200
Sifariş: 3012
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Məsul növbətçi: Yeganə Bayramova